# Səsvermə günü prosedurları

## Asan oxunan



2025 il

Sənəd Gürcüstan Daun Sindromu Assosiasiyası tərəfindən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlıq Ofisinin (UN OHCHR) maliyyə dəstəyi ilə hazırlanmışdır.

Sənədin məzmununa tam məsuliyyəti Gürcüstan Daun Sindromu Assosiasiyası daşıyır və orada ifadə olunan fikirlər BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlıq Ofisinin baxışlarını əks etdirməyə bilər.

# Bu dərslik nə haqqındadır?



| | |
|---|---|
|  | Bu dərslik sizə səsvermənin nə olduğunu öyrədəcək. |
|  | Səsvermə üçün hansı qaydaların vacib olduğunu biləcəksiniz. |
|  | Səsvermə zamanı nələrə ehtiyacınız olduğunu öyrənəcəksiniz. |
|  | Səsvermə prosesi ilə bağlı yeni sözlər və terminlər öyrənəcəksiniz. |
|  | Səsvermə prosesində hansı hüquqlara malik olduğunuzu biləcəksiniz. |

# Sözlərin izahı



| | |
|---|---|
|  | **Səsvermə** – insanların namizəd seçdiyi və ya vacib bir suala səsvermə yolu ilə cavab verdiyi prosesdir. |
|  | **Səsvermə** mühüm qərarların qəbul edilməsi üçün vacibdir. |
|  | **Markerləmə** – sağ əlin baş barmağına və ya işarə barmağına qoyulan nişan, bu, seçkilərdə səs verdiyinizi göstərir. |
|  | **Seçki bülleteni** – seçkilərdə iştirak edən namizədlərin siyahısının olduğu xüsusi kağız, burada siz seçdiyiniz namizədə səs verə bilərsiniz. |
|  | **Seçicilərin axını** – səsverməyə gələn insanların növbəsi. |

| | |
|---|---|
|  | **Referendum** – vacib məsələlərin həlli üçün keçirilən ümumxalq sorğusu və səsvermə. |
|  | **Qeydiyyat ünvanı** – şəxsin rəsmi qeydiyyatda olduğu ünvan. Bu ünvan şəxsiyyət vəsiqəsində və pasportda qeyd olunur. |
|  | **Qeydiyyatçı** – seçicinin şəxsiyyətini və onun seçici siyahısında olub-olmadığını yoxlayan şəxs. Qeydiyyatçı seçiciyə səsvermə üçün bülleten verir. |
|  | **Müddət** – müəyyən bir işin yerinə yetirilməli olduğu konkret vaxt intervalı. Müddət bitdikdən sonra bu hərəkət bəlkə də artıq icra edilə bilməz. |
|  | **Seçki siyahısı** – seçkilərdə səsvermə hüququ olan insanların siyahısı. Bu siyahıya daxil olan seçicilər seçki günü gedib səs verirlər. |

# Səs vermək üçün nəyi bilməliyəm?



| | |
|---|---|
|  | Səsinizi seçki məntəqəsində verirsiniz. Bu, səs vermək üçün getdiyiniz yerdir. |
|  | Seçki məntəqəsi səhər çox erkən açılır. |
|  | Seçki məntəqəsi saat 8:00-da artıq seçiciləri qəbul etmək üçün açıq olur. |
|  | Düzgün seçki məntəqəsini tapmaq üçün qeydiyyat ünvanınızı bilməlisiniz. |
|  | Səsvermə prosesi bir çox qaydaya malikdir və onlara riayət etmək vacibdir. |

# Səsvermə zamanı hansı prosesi keçməliyəm?



| | |
|---|---|
|  | Səs vermək üçün gəldikdə, sizdə markerləmə olub-olmadığını yoxlayacaqlar. |
|  | Səsinizi yalnız bir dəfə verirsiniz, buna görə səsvermədən əvvəl markerlənməməlisiniz. |
|  | Əgər markerlənmə yoxdursa, sizə marker qoyulacaq və səsvermə otağına buraxılacaqsınız. |
|  | Səsvermə otağında qeydiyyatçı olacaq və ona şəxsiyyət vəsiqənizi və ya pasportunuzu təqdim etməlisiniz. |
|   | Seçkilərə getməzdən əvvəl şəxsiyyət vəsiqənizin və ya pasportunuzun etibarlılıq müddətinin bitib-bitmədiyini yoxlayın. |

| | |
|---|---|
|  | Qeydiyyatçı şəxsiyyət vəsiqənizdə və ya pasportunuzda olan məlumatları öz seçki siyahısı ilə yoxlayır. |
|  | O, üzünüzə baxacaq və əmin olacaq ki, həqiqətən öz şəxsiyyət vəsiqənizi və ya pasportunuzu təqdim etmisiniz. |
|  | Qeydiyyatçı şəxsiyyət vəsiqənizdəki və ya pasportunuzdakı fotoşəkli seçici siyahısında göstərilən foto ilə müqayisə edəcək. |
|  | Qeydiyyatçı barmağınıza marker mayesi çəkəcək və sizə bülleten verəcək. |
|  | O, adınızın və soyadınızın qarşısında imza atmağınızı istəyəcək. |
|  | Seçki bülleteni verilərkən, qeydiyyatçı da bülletenə imza atacaq və möhür vuracaq. |

| | |
|---|---|
|  | Bülleten əlinizdə kabinəyə daxil olursunuz. |
|  | Səsvermə gizli olduğuna görə kabinəyə daxil olmalısınız. Başqaları kimin xeyrinə səs verdiyinizi görməməlidir. |
|  | Kabinədə seçdiyiniz namizədi işarələyirsiniz. |
|  | Namizədi işarələdikdən sonra, bülleteni elə qatlayırsınız ki, nəyi işarələdiyiniz görünməsin. |
|  | Əgər bülleteni doldurarkənköməyə ehtiyacınız olarsa, yardım istəyə bilərsiniz. |
|  | Qatlanmış seçki bülleteni ilə ayrılmış masaya yaxınlaşırsınız. |

| | |
|---|---|
|  | Masadan müstəqil şəkildə xüsusi bir konvert götürüb bülleteni onun içinə yerləşdirirsiniz. |
|  | Konverti seçki qutusuna atırsınız. |
|  | Artıq səs vermisiniz və gedə bilərsiniz. |
|  | Səsvermə seçki binasında, seçki günü səhər saat 8:00-dan axşam saat 8:00-a qədər keçi-rilir. |